

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 124 (21.785)

5 iyul 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Sahibkarlıq fəaliyyətinin gücləndirilməsində dövlət qayğısı başlıca amildir

*Müasir cəmiyyətin iqtisadi və mədəni inkişafının əsas faktorları arasında sahibkarlıq fəaliyyətinin mühüm rolu vardır. Bütün sahələrdə insan həyatını dəyişdirən, innovativ yeniliklərin və yüksək texnologiyanın tətbiqi ilə ümumi inkişafı şərtləndirən sahibkarlıq, bu mənada, həm də yaradıcılıq sahəsidir. Sahibkarlığın inkişafı, onun rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində dövlət tənzimlənməsi isə bu sahədə hüquqi bazanın yaradılması və beynəlxalq təcrübəyə uyğun cəlbedici biznes və investisiya mühitinin formalaşdırılmasında mühüm əhəmiyyətə malikdir.*



İqtisadiyyatda qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyətinə qarşı hər cür süni maneələrin aradan qaldırılması, istehsal olunmuş məhsulun ixrac imkanlarının genişləndirilməsi, yeni layihələr üçün kredit dəstəyi və təşviq mexanizmlərinin formalaşdırılması, beynəlxalq standartlara uyğun elektron dövlət xidmətlərinin göstərilməsi bu sahənin uğuru üçün vacib məsələlərdəndir. Bu baxımdan muxtar respublikamızda sahibkarlıq sahəsində əldə olunmuş sürətli inkişafın davamlılığının təmin edilməsi sahibkarlığa göstərilən dövlət dəstəyinin əhəmiyyətini bir daha ortaya qoyur. Müstəqilliyimizin ilk illərindən başlayaraq muxtar respublikamızda sahibkarlıq fəaliyyətinin təşəkkül tapmasınadək keçilən yol və əldə olunan müasir səviyyə bu qənaətə gəlməyə imkan verir.

Naxçıvanda mövcud olan təbii sərvətlər, həyata keçirilən infrastruktur layihələri və istehsal-əmək ehtiyatları, xüsusilə sənaye və kənd təsərrüfatı sahəsində sərmayə qoyuluşlarının həcminin artmasına şərait yaradıb. Region əhalisinin tələbatlarının qarşılanması, xüsusən də blokada şəraitində zəruri maddi nemət və xidmətlərə olan ehtiyacların ödənilməsi baxımından özəl sektor qarşısında ilk mərhələdə çox çətin həll edilən məsələlər olub. Bu mənada, muxtar respublikada sahibkarlıq potensialının formalaşdırılması həmişə dövlətin diqqət mərkəzində saxlanılıb.

Biznesə gedən yolda əldə olunan uğurlar təkcə bazarın tələbatı ilə deyil, həm də dövlət və sosial maraqların ödənilməsi ilə mümkündür. Başqa sözlə, sahibkar öz biznesi ilə insanlar üçün faydalı olarsa, bu zaman o həm də öz işini genişləndirə biləcəkdir. Muxtar respublikamızda sahibkarlığın inkişaf yoluna nəzər saldıqda, görürük ki, ötən dövr ərzində özəl sektorun üzərinə düşən vəzifələr, ümumən, bazar iqtisadiyyatı şəraitində mövcud olan dövlət-vətəndaş-sahibkar münasibətlərinin yetkinləşməsi ilə həllini tapmış və hazırda özəl sektorun ümumi daxili məhsuldakı payı 87 faizi ötmüşdür. Bu rəqəm bir daha sahibkarlığın cəmiyyətimizdəki artan nüfuzundan, onun yükləndiyi məsuliyyətin ağırlığından xəbər verir. Əgər bir vaxtlar muxtar respublikamızda sahibkarlıq yalnız kiçik ticarətlə məhdudlaşırdısa, indi naxçıvanlı iş adamları istehsal, emal, turizm, ticarət, kənd təsərrüfatı və xidmət sektoruna aid çoxsaylı sahələrdə fəaliyyətini genişləndirərək irihəcmli layihələri reallaşdırırlar. Məhz dövlət və sahibkar əlaqələrinin dərinləşməsi ilə son 22 il ərzində muxtar respublikada yüksək texnologiyalı sənaye maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma, mebel, yeyinti sənayesi və kənd təsərrüfatı təyinatlı çoxsaylı istehsal və xidmət sahələri yaradılıb. Yaradılan hər yeni istehsal sahəsi daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynayıb. Nəticədə, hazırda muxtar respublikada 371 növdə məhsul istehsal edilir və Naxçıvandakı müəssisələrin bir çoxu artıq xarici bazarlarda özünə yer tutmağa başlayıb. Belə ki, bu gün muxtar respublikada fəaliyyət profilinə görə 50-dən artıq müəssisə ixrac qabiliyyətinə malikdir. Həmin müəssisələr tərəfindən 60-dan çox növdə məhsul istehsal olunur.

Naxçıvanda sahibkarlıq fəaliyyətinə göstərilən dövlət dəstəyi müxtəlif cəhətlərinə görə dəyişir. Regionun daxili imkanlarına və sosial-iqtisadi inkişafın prioritetlərinə görə gələcək istiqamətlərin müəyyən olunması bu baxımdan diqqəti cəlb edir. Muxtar respublika iqtisadiyyatına investisiya qoyuluşunu sürətləndirmək, ənənəvi sahələrin işini canlandırmaq və yeni layihələri gerçəkliyə çevirmək üçün dövlət dəstəyi çox qısa zamanda özünü göstərdi. Belə ki, əgər 1995-ci ildə region iqtisadiyyatına yönəldilmiş investisiyaların həcmi cəmi 3 milyon 49 min manat idisə, bu göstərici 2016-cı ildə 327 dəfə artaraq 997 milyon manat təşkil edib. İqtisadiyyatın aparıcı sahəsi olan sənayenin inkişaf etdirilməsi, muxtar respublikanı aqrar regiondan sənaye regionuna çevirmək üçün qarşıya qoyulmuş konkret vəzifələrin yerinə yetirilməsi öz bəhrəsini verib. Belə ki, 1996-cı ildə muxtar respublikada, ümumilikdə, 40 sənaye müəssisəsi vardısa, bu gün onların sayı 11 dəfədən çox artırılıb. Yeni fəaliyyətə başlayan müəssisələr, əsasən, yerli xammaldan istifadə əsasında öz fəaliyyətlərini qurublar ki, bu da hazır məhsulun daha ucuz qiymətə istehlakçılara çatdırılmasına imkan yaradır. Hazırda muxtar respublikada mövcud olan istehsal müəssisələrinin 70 faizi tamamilə yerli xammaldan istifadə edərək fəaliyyət göstərir. Ümumilikdə isə 2016-cı ildə muxtar respublikada 942 milyon manatdan artıq həcmdə sənaye məhsulu istehsalı qeydə alınıb, bu məhsulların tərkibində özəl bölmənin payı 2016-cı ildə 96 faizə çatıb. İstehsal olunmuş sənaye məhsulunun həcmi 1995-ci illə müqayisədə 103 dəfə, 2000-ci illə müqayisədə isə 69 dəfə artıb.

Naxçıvanda sahibkarlığa dövlət dəstəyi xüsusən kiçik və orta sahibkarlığın inkişaf etdirilməsinə güclü təkan verib. Təsadüfi deyildir ki, dünyanın inkişaf etmiş ölkələrində fəaliyyət göstərən müəssisələrin 80-90, ümumi daxili məhsulun 45-50, bütün işləyənlərin 50-60 faizi və eləcə də yeni yaranan iş yerlərinin 70-80 faizdən çoxu kiçik müəssisələrin payına düşür. Muxtar respublikada biznesə yeni başlayan kiçik və orta sahibkarlıq qurumlarına maliyyə dəstəyi göstərmək və bölgələrdə əhalinin məşğulluğunun təmin edilməsinə şərait yaratmaq məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdindəki Sahibkarlığa Kömək Fondu tərəfindən indiyə qədər 1200-dən çox layihənin maliyyələşdirilməsi həyata keçirilib. Ayrılan dövlət dəstəyi muxtar respublikada sənaye, xidmət və kənd təsərrüfatı təyinatlı müəssisələrin yaradılmasında istifadə olunub.

Naxçıvanlı sahibkarların istehsal etdikləri məhsulların sorağı artıq onun hüdudlarını çoxdan aşıb. Naxçıvan məhsulları ölkəmizin digər yerlərindən başqa, Gürcüstan, Türkiyə, İran, Ukrayna, Birləşmiş Ərəb Əmirlikləri, Rusiyaya da ixrac edilir. İxracın həcmindəki dinamika isə hər il davamlı olaraq artmaqdadır. Təkcə 2017-ci ilin ilk 4 ayı ərzində muxtar respublikada məhsul ixracının həcmi 97 milyon 921 min 400 ABŞ dollarını ötüb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. Naxçıvanlı sahibkarların xarici ticarət əlaqələrinin genişlənməsi ilə 2009-cu ildən başlayaraq muxtar respublikanın xarici ticarətində müsbət saldo yaranıb. Yerli sahibkarların məhsullarının dünya bazarında mövqeyini möhkəmlətmək, onların dünya biznes mühiti ilə əlaqələrini daha da genişləndirmək məqsədilə xarici dövlətlərin rəsmi və işgüzar dairələrinin iştirakı ilə ardıcıl və ənənəvi biznes forumlar keçirilir. Muxtar respublikamızda yerli məhsulların keyfiyyətinin yüksəldilməsi, həmin malların xarici bazarlara çıxışı, yerli brendlərin yaradılması və digər sahələrdə mövcud fəaliyyətlərin təkmilləşdirilməsi məqsədilə 2014-cü ildə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilib.

Zaman sürətlə dəyişir və inkişaf özü ilə bərabər hər sahədə olduğu kimi, sahibkarlıq fəaliyyəti qarşısında da yeni tələblər qoyur. İnsanların yüksələn həyat səviyyəsini təmin edə bilmək üçün sahibkarlarımız da yaradılan şəraitdən maksimum dərəcədə istifadə edirlər. Artıq hər bir iş adamı öz fəaliyyətini təkcə bazardakı mövqeyi üçün deyil, cəmiyyətdə daşıdığı məsuliyyət üzərində qurur, öz işini genişləndirir, inkişaf edir. İndi yaşadığı torpaqda özünə yaxşı iş qurub, yeni iş yerləri yaradan, onlarla naxçıvanlı sahibkar var. Heç şübhəsiz, bu nailiyyətlər həmin iş adamları üçün hər cür şərait yaradan, onların maraqlarını qoruyan, yaxşı çalışan hər sahibkarın əməyini yüksək qiymətləndirən dövlətimizin diqqət və qayğısı sayəsində mümkün olub.

**Sevinc CABBAROVA**
*iqtisad üzrə fəlsəfə doktoru*

***Artıq üçüncü ildir ki, Naxçıvan Muxtar Respublikasında keçirilən “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbirin yeddinci tirajının qalibləri Naxçıvan şəhərində, Kəngərli, Şərur və Sədərək rayonlarında mükafatlandırılıblar.***

## “Nağdsız ödəyin, hədiyyə qazanın!” tədbirinin yeddinci tirajı keçirilib



Naxçıvan şəhəri üzrə yeddinci tirajın qaliblərinə hədiyyələrin təqdim edilməsinə münasibətilə muxtar respublika Vergilər Nazirliyində keçirilən tədbiri giriş sözü ilə nazirliyin şöbə rəisi Rəşad Əliyev açıb. Nazirliyin əməkdaşı çıxışında bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il martın 2-də imzaladığı Sərəncamla təsdiq edilən “2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram”da Vergilər Nazirliyinə nağdsız ödənişlərin həcminin artırılması məqsədilə kart sahibləri arasında həvəsləndirici tədbirlərin keçirilməsi tapşırılıb. Nağdsız əməliyyatların genişləndirilməsi tədbirləri çərçivəsində 1 iyun 2017-ci il tarixə muxtar respublikanın ticarət və iaşə obyektlərinə 1249 ədəd POS-terminal elektron qaydada qeydiyyatdan keçirilərək quraşdırılıb. Muxtar respublikamızda son dövrlər nağdsız dövriyyənin stimullaşdırılması istiqamətində aparılan maarifləndirici tədbirlər öz müsbət nəticələrini verir.

Görülmüş tədbirlərin nəticəsində muxtar respublika üzrə ötən il ərzində ödəniş kartları vasitəsilə edilən nağdsız ödənişlərin həcmi 27 milyon 701 min manata çatdırılıb. Bu ilin 5 ayında isə nağdsız ödənişlərin həcmi 13 milyon 479 min manat olub. Təqdirəlayiq haldır ki, bəhs edilən dövrdə POS-terminallar vasitəsilə aparılan nağdsız ödənişlərin həcminin 77 faizi muxtar respublikamızın rayonlarının payına düşüb.

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi tərəfindən nağdsız ödənişlərin həcminin artırılması məqsədilə 2014-cü ildən etibarən ildə iki dəfə “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbir keçirilir. 2014-cü ildə 223 vətəndaşa 20 min manatlıq, 2015-ci ildə 398 istehlakçıya 20 min manat dəyərində, ötən il isə 435 vətəndaşa 30 min manat dəyərində müxtəlif məişət avadanlıqları hədiyyə edilib.

Builki həvəsləndirici tədbirdə də seçim zamanı obyektivliyi təmin etmək məqsədilə bir neçə kriteriyaya diqqət edilib. Belə ki, yuxarı məbləğdə əməliyyat aparılmasından əlavə, əsas göstərici kimi, say etibarilə POS-terminallardan daha çox istifadə edən vətəndaşlara üstünlük verilib.

Tədbirdə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin aparıcı mütəxəssisi Hafiz İsmayılbəyli çıxış edərək bildirib ki, 1 iyun 2017-ci il tarixə bankomatların sayı 56-sı Naxçıvan şəhərində, 45-i isə rayon və kənd mərkəzlərində olmaqla, 101 ədəd təşkil edib. Muxtar respublika üzrə əməkhaqqı, pensiya və fərdi ödəniş kartı alanların sayı ötən ilin müvafiq dövründə 232 min 43 nəfər təşkil edirdisə, hazırda bu göstərici 251 min 736-ya çatıb, ötən ilin müvafiq dövrü ilə müqayisədə 19 min 693 ədəd artım qeydə alınıb. İnfrastruktur imkanlarının genişlənməsi, eyni zamanda nağdsız ödəniş həcminin artımına da təsirsiz ötüşməyib. Əgər 2016-cı ilin ilk 5 ayı ərzində muxtar respublika üzrə aparılmış nağdsız əməliyyatların həcmi 12 milyon 90 min manat, o cümlədən Naxçıvan şəhəri üzrə 975 min 912 manat təşkil edirdisə, 2017-ci ilin 5 ayı ərzində bu rəqəm artaraq muxtar respublika üzrə 13 milyon 479 min manat, o cümlədən Naxçıvan şəhəri üzrə 1 milyon 86 min manat olub. Cari ilin yanvar-may ayları ərzində muxtar respublika sakinləri tərəfindən aparılmış nağdsız ödənişlərin 4 milyon 469 min manatı POS-terminallar üzərindən, 9 milyon 10 min manatı isə internet və digər ödəniş vasitələri üzərindən həyata keçirilib.

Muxtar respublika Vergilər Nazirliyinin şöbə rəisi Mübariz Əhmədov bildirib ki, “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı tədbirin növbəti tirajı bütün şəhər və rayonlarımızı əhatə edib, hədiyyə qazanan vətəndaşların sayı, ümumilikdə, 232 nəfər olub. Onlardan 39-u Naxçıvan şəhər sakinidir. Müvafiq komissiya tərəfindən bu ilin yanvar ayının ilk günündən iyun ayının 1-dək bank orqanlarından nağdsız ödənişlərə üstünlük verən vətəndaşlar haqqında məlumatlar toplanıb və adıçəkilən kriteriyalar əsasında hədiyyə alacaq şəxslərin siyahısı hazırlanıb. Naxçıvan şəhərində 400-601 manat həcmində nağdsız ödənişlər aparan sakinlərə I, 601-801 manatadək bu qəbildən ödənişlərdən istifadə edənlərə II, 801 manatdan daha çox həcmdə ödəniş aparanlara isə III meyarlar üzrə hədiyyələr təqdim olunur. Bugünkü tədbirdə I meyar üzrə 26, II meyar üzrə 7, III meyar üzrə 6 nəfər Naxçıvan şəhər sakininə hədiyyələr veriləcək.

Sonra nağdsız ödənişlərə üstünlük verən şəhər sakinlərinə hədiyyələr təqdim edilib. Hədiyyə alanlar bundan sonra da POS-terminallardan mütəmadi istifadə edəcəklərini bildiriblər.

Məlumat üçün qeyd edək ki, “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbir çərçivəsində dünən Kəngərli rayonunda 24, Şərur rayonunda 38, Sədərək rayonunda 18 nəfərə hədiyyələr təqdim edilib. Muxtar respublika sakinlərinə, ümumilikdə, 15 min manat dəyərində müxtəlif hədiyyələr verilib.

**Səbuhi HÜSEYNOV**

# Naxçıvan Muxtar Respublikasında təsərrüfat sahələrinin ixtisaslaşdırılmasına görə torpaqların rayonlaşdırılması

***Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikada aqrar sektoru inkişaf etdirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin verdiyi sərəncamlar əsasında bir neçə sərəncam imzalamışdır. Bu sərəncamlara əsasən ərazidə aqrar sektorun inkişaf etdirilməsində əsas yer tutan torpaq ehtiyatlarından elmi əsaslarla səmərəli istifadə etmək üçün müasir dövrün tələblərinə cavab verən yeni metodların köməyi ilə regionun torpaqları öyrənilməyə başlanılıb.***

Bu metodlardan biri Naxçıvan Muxtar Respublikasında torpaqların münbitliyini qorumaq və səmərəli istifadə olunması üçün ərazinin fiziki-coğrafi şəraiti öyrənilməklə, inzibati rayonlar və təbii zonalar üzrə torpaq-bitki kompleksinin rayonlaşdırılmasıdır.

Məlumdur ki, torpaq və bitki örtüyünün coğrafi yayılmasında, formalaşmasında və inkişafında ərazinin fiziki-coğrafi amillərinin rolu böyükdür. Torpaq və bitki örtüyünün coğrafi yayılmasına təsir edən bu amillərdən ərazinin coğrafi mövqeyini, relyef, geoloji, geomorfoloji quruluşunu, iqlim şəraitini, bitki və heyvanlar aləmini, antropogen təsiri və sairəni göstərmək olar. Qeyd edilən fiziki-coğrafi amillər ayrı-ayrılıqda və bütövlükdə yaratdıqları ərazi fərqləri torpaq və bitki növlərinin müxtəlifliklərinin meydana gəlməsinə səbəb olur.

2004-cü ildən regionun sosial-iqtisadi şəraitinin yaxşılaşdırılması üçün muxtar respublikamızda 5 inzibati (Şərur, Babək, Culfa, Ordubad və Şahbuz) rayon daxilində 7 inzibati (Sədərək, Şərur, Kəngərli, Babək, Culfa, Ordubad və Şahbuz) rayon yaradılmışdır.

Muxtar respublikanın fiziki-coğrafi şəraiti nəzərə alınmaqla aparılan tədqiqatlar, torpaqların rayonlaşdırılmasının 7 inzibati rayonun əsasında 4 torpaq kadastr rayonunun olmasını təsdiq edir. Belə ki, Şərur-Ordubad torpaq-kadastr rayonunun fiziki-coğrafi şəraiti, o cümlədən torpaq-iqlim şəraiti kəskin fərqləndiyindən mədəni və təbii bitkilərin ixtisaslaşmasını düzgün aparmaq mümkün deyildi. Bu baxımdan Sədərək-Ordubad torpaq kadastr rayonunun iki – Sədərək-Culfa və Gilançay-Kotam rayonlarına bölünməsi məqsədəuyğundur.

Naxçıvan təbii aqrar vilayəti əsasında 4 torpaq kadastr rayonu ərazidə aqrar sektorun daha düzgün ixtisaslaşdırılmasına şərait yaradacaqdır.

Qeyd edək ki, Naxçıvan təbii aqrar vilayətinin ümumi sahəsi 550 min 275 hektar təşkil edir. Torpaq- iqlim şəraitinə görə təbii vilayətə Sədərək-Culfa, Gilançay-Kotam, Günnüt-Parağaçay və Biçənək-Qapıcıq torpaq kadastr rayonları daxildir.






*Sədərək-Culfa torpaq kadastr rayonu*

Bu rayona Sədərək, Şərur, Kəngərli, Babək və Culfa inzibati rayonlarının düzən və dağətəyi torpaqları daxildir. Təbii kadastr rayonunun ümumi sahəsi 163 min 250, bütövlükdə əkinəyararlı torpaqlar 50,1 min hektardır. Rayonun ixtisaslaşmış sahələrində, əsasən, taxılçılığı, yemçiliyi, üzümçülüyü, tərəvəzçiliyi və qismən də dağətəyi təsərrüfatlarda tütünçülüyü inkişaf etdirmək mümkündür. Ərazidə taxıl əkini sahələrindən bir çox təsərrüfatlarda hər hektardan 50 sentnerdən yuxarı məhsul götürülür. Belə yüksək məhsuldarlıq üzüm və yemçilik təsərrüfatlarında da müşahidə olunur.

*Gilançay-Kotam torpaq kadastr rayonu*

Bu rayon Ordubad inzibati rayonunun maili düzənlik və dağətəyi torpaq sahələrini əhatə edir. Təbii torpaq kadastr rayonunun ümumi sahəsi 38 min 200, bütövlükdə əkinəyararlı torpaqlar 17 min hektardır. Rayonun ixtisaslaşmış sahələrində, əsasən, bağçılıq, taxılçılıq, yemçilik, tərəvəzçilik inkişaf etdirilir. Fərdi təsərrüfatlarda meyvə və tərəvəz sahəsində yüksək məhsul alınır.

*Günnüt-Parağaçay torpaq kadastr rayonu*

Bu rayon Sədərək, Şərur, Kəngərli, Babək, Şahbuz, Culfa və Ordubad inzibati rayonlarının orta dağlıq sahələrini əhatə edir. Təbii torpaq kadastr rayonunun ümumi sahəsi 319 min 950 hektardır. Bu ərazilərdə aqrar sektorda torpaqlardan istifadə olunması məhdud dərəcədədir. Rayon təbii istiliklə əvvəlki zonalara nisbətən az təmin olunmuşdur. 10 dərəcədən yüksək temperaturların cəmi 4 min dərəcədən aşağıdır. Ərazidə, əsasən, dağ-qəhvəyi, bozqırlaşmış dağ-qəhvəyi və daşlı, çınqıllı, şebenli dağ-qəhvəyi torpaqlar yayılıb. Rayonda torpaqların 70 faizə qədəri eroziyaya məruz qalmaqla, bu proseslər Ordubad və Culfa rayonlarında daha çox müşahidə olunur. Torpaq kadastr rayonunun əsas ixtisaslaşdırılmış sahələri, əsasən, heyvandarlıq və yemçilikdir. Aşağı hissələrdə əlavə ixtisaslaşmış sahələri isə taxılçılıq, meyvəçilik və tərəvəzçilikdir.

*Biçənək-Qapıcıq torpaq kadastr rayonu*

Bu rayon Şahbuz, Culfa və xüsusilə Ordudad rayonlarının yüksək dağlıq sahələrini əhatə edir. Həmin ərazilərdə nival-buzlaq sahələri, bəzi hissələrində isə dağ-çəmən, ibtidai dağ-çəmən və dağ-çəmən çimli torpaqları vardır. Təbii kadastr rayonunun ümumi sahəsi 28 min 875 hektardır.

Bu ərazilərdə aqrar sektorda torpaqlardan istifadə olunma yox dərəcədədir. Rayon təbii istiliklə əvvəlkilərə nisbətən az təmin olunub. 10 dərəcədən yüksək temperaturların cəmi 2 min dərəcədən aşağıdır. Kadastr rayonunun yuxarı hissələrində nival-buzlaq sahələri hakim olduğuna görə aqrar sektor üçün yararlı deyil. Aşağı hissələrdə ixtisaslaşmış sahələri mövsümi otlaq, heyvandarlıq və arıçılıqdır.

Muxtar respublikanın torpaq kadastr rayonları üzrə torpaqlardan mədəni və təbii bitkilər altında səmərəli istifadə etmək, əlavə xərclərdən azad olmaq, təsərrüfatların ixtisaslaşmasını düzgün aparmaq üçün torpaqların bonitet balı və torpaqların müqayisəli dəyərlilik əmsalları hesablanıb.

Muxtar respublikanın torpaq kadastr rayonları üzrə orta bonitet balı 59-a bərabərdirsə, bu göstərici Sədərək-Culfada 60, Gilançay-Kotamda 58, Günnüt-Parağaçayda 66, Biçənək-Qapıcıqda 52 bal olmuşdur.

Gələcəkdə Naxçıvan Muxtar Respublikasında mədəni bitkilərin ixtisaslaşdırılmasını daha dəqiq aparmaq üçün təbii zonalar üzrə torpaq kadastr rayonlarından əlavə, ərazidə inzibati rayonlarda da torpaq-iqlim şəraiti nəzərə alınmaqla torpaq kadastr yarımrayonlarının öyrənilməsi əsas məsələlərdən biri sayılır.

İnzibati rayonlar üzrə tərtib olunmuş qiymət şkalalarında ekoloji şərait nəzərə alınmaqla, orta bonitet balları, nisbi dəyərlilik əmsalları öyrənilmişdir. Lakin burada kənd təsərrüfatı bitkilərinin ixtisaslaşmasını düzgün aparmaq mümkün olmur. Çünki hər bir inzibati rayon daxilində müxtəlif fiziki-coğrafi şərait mövcud olmaqla, hələlik torpaq kadastr yarımrayonları tam öyrənilməyib. Ona görə də muxtar respublikanın aqrar sektorunda mədəni bitkilərin düzgün ixtisaslaşdırılmasını aparmaq üçün regionun inzibati rayonlarında, təbii zonalarında torpaq, bitki, iqlim və digər fiziki-coğrafi amillərin öyrənilməsinə ehtiyac var.

Muxtar respublikanın bir neçə inzibati rayonunda fiziki-coğrafi amillər nəzərə alınmaqla torpaq kadastr yarımrayonlarına ayrılması üzrə tədqiqat işi başlanılıb. Bu inzibati rayonlardan biri muxtar respublikanın aqrar sektorunda əsas rol oynayan Şərurdur.

Tədqiqat aparılan Şərur inzibati rayonunda ərazinin fiziki-coğrafi xüsusiyyətlərini nəzərə almaqla aşağıda göstərilən 5 torpaq kadastr yarımrayonuna ayrılması məsləhət görülüb:

1. Şərur düzü torpaq kadastr yarımrayonu. 2. Ardıc-Munhbala oğlu dağlarının torpaq kadastr yarımrayonu. 3. Şahbulaq-Axura torpaq kadastr yarımrayonu. 4. Yeni Havuş-Tənənəm torpaq kadastr yarımrayonu. 5. Havuş-Qaraquş torpaq kadastr yarımrayonu.

Aparılan tədqiqatlar əsasında Şərur inzibati rayonunda ayrılmış 5 torpaq kadastr yarımrayonunun fiziki-coğrafi xüsusiyyətləri öyrənilərək təhlil edilib və aşağıdakı ixtisaslaşdırılmış təsərrüfat sahələri müəyyənləşdirilib:

1. Şərur düzü torpaq kadastr yarımrayonunun düzənlik zonasında, xüsusilə yemçilik, iribuynuzlu heyvandarlıq, üzümçülük, taxılçılıq, tərəvəzçilik, dağətəyində bağçılıq, yemçilik, xırdabuynuzlu heyvandarlıq inkişaf etdirilə bilər. 2. Ardıc-Munhbala oğlu dağlarının torpaq kadastr yarımrayonu isə xırdabuynuzlu heyvandarlıq, dağ vadilərində dəmyə taxılçılıq, yemçilik, ovçuluq və turizm üçün əlverişlidir. 3. Şahbulaq-Axura torpaq kadastr yarımrayonu xırdabuynuzlu heyvandarlıq, dağ vadilərində dəmyə taxılçılıq və yemçilik, meyvəçilik, ovçuluq və turizm üçün yararlıdır. 4. Yeni Havuş-Tənənəm torpaq kadastr yarımrayonunda xırdabuynuzlu heyvandarlıq, dəmyə taxılçılıq və yemçilik daha məhsuldar təsərrüfat sahələri ola bilər. 5. Havuş-Qaraquş torpaq kadastr yarımrayonu isə xırdabuynuzlu heyvandarlıq, dəmyə taxılçılıq və yemçilik, ovçuluq və turizm üçün əlverişlidir.

**Sahib HACIYEV**
*aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent*

---

*İstehsal müəssisələri*

# “Müasir məkan” keyfiyyətli məhsullar istehsal edir

***Müasir dövrümüzdə istehsal olunan keyfiyyətli ət və ət məhsulları yüksək bioloji dəyərli qida kimi insan orqanizmi üçün mühüm əhəmiyyətə malikdir. Ətin tərkibini araşdırdıqda məlum olur ki, onda normal həyat fəaliyyəti üçün lazım olan zülal, yağ, vitamin və mineral maddələr vardır. Ət və ət məhsulları qrupuna ət, quş əti, kolbasalar, ət konservləri, yarımfabrikatlar və sair daxildir.***

Muxtar respublikamızda bu sahədə ixtisaslaşmış bir neçə müəssisə fəaliyyət göstərir. Bu gün mağazalarda həmin müəssisələrin istehsal etdiyi ət və ət məhsulları satışa çıxarılır. Onlar arasında yüksək keyfiyyəti ilə daha çox alıcı kütləsi qazanan “MM” əmtəə nişanı ilə tanınan ət və ət məhsullarının xüsusi yeri vardır.










Naxçıvan şəhərinin Babək məhəlləsində fəaliyyət göstərən “Müasir məkan” müəssisəsində yaradılan şəraitlə maraqlanmaq, iş prosesi ilə tanış olmaq üçün ötən günlərdə yolumuzu adıçəkilən ünvandan saldıq. Sahibkar Ziyafəddin Məmmədov bizimlə söhbətində bildirdi ki, müəssisə 2003-cü ildən etibarən fəaliyyətə başlayıb. Qısa zamanda bu müəssisənin məhsullarına tələbat artdığı üçün çox və daha keyfiyyətli məhsul istehsal etmək məqsədilə yeni binanın inşa olunması və müasir texnoloji avadanlıqların alınması zərurəti yaranıb. Bütün bu şəraitin yaradılması dövlət qayğısı hesabına mümkün olub. Belə ki, müəssisəyə Sahibkarlığa Kömək Fondundan dövlət maliyyə dəstəyi göstərilib. Naxçıvan şəhərinin Babək məhəlləsində istehsal müəssisəsi üçün ayrılmış ərazidə müasir layihə əsasında istehsal sexi, xammal və hazır məhsulların saxlanılması üçün soyuducu anbar, laboratoriya, inzibati bina tikilib istifadəyə verilib.

2011-ci ilin əvvəllərindən yeni binada fəaliyyətə başlayan müəssisədə Polşa istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb, istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilib. Həmçinin müəssisənin daim təzə ətlə təmin olunması üçün Culfa rayonunun Gülüstan kəndi ərazisində yardımçı təsərrüfat yaradılıb. Hazırda müəssisədə “Naxçıvan” və “Doğma tam” adı ilə hisə verilmiş və bişirilmiş kolbasa, eləcə də sosiska istehsal olunur. Müəssisədə ilk vaxtlar 2-3 çeşiddə ət və ət məhsulları istehsal olunurdusa, indi alıcı istəkləri nəzərə alınaraq 22 çeşiddə keyfiyyətli məhsul istehsal edilir. Burada xammalın qəbulundan tutmuş satışa çıxarılmasınadək bütün texnoloji proseslərə, gigiyenik qaydalara ciddi əməl olunur, ət və hazır məhsul laborator analizdən keçirildikdən sonra istehsala və satışa buraxılır. “MM” tanıtım nişanlı bu məhsullar alıcılar tərəfindən böyük rəğbətlə qarşılanır. Ayrı-ayrı ticarət şirkətlərindən alınan sifarişlər də dadı-tamı ilə seçilən bu yerli məhsula tələbatın çox olduğunu göstərir.

Müəssisə rəhbəri onu da bildirdi ki, burada istehsal olunan məhsulların ölkəmizin digər regionlarında da satışı təmin edilir. Bu məqsədlə Bakı şəhərində satış mərkəzi yaradılıb. Gələcəkdə bu məhsulların xarici bazarlara çıxarılması da planlaşdırılır. İqtisadi əlaqələri genişlənən müəssisədə daxili bazarın tələbatına uyğun yeni istehsal sahələri yaradılıb. 2014-cü ildə ətin konservləşdirilməsi istehsalı sahəsi üçün Almaniyanın “ASCA” şirkətindən istehsal gücü saatda 600 ədəd 400 qramlıq tara olan, ətin konservləşdirilməsi istehsalı sahəsində istifadə edilən tara istehsalı üçün Çin Xalq Respublikasından müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb. Yeni istehsal sahələrinin fəaliyyətə başlaması daxili bazarı keyfiyyətli yerli ərzaq məhsulları ilə təmin etməklə yanaşı, yeni iş yerlərinin açılmasına da əlverişli şərait yaradıb.

İş prosesi ilə tanışlıq zamanı onu da öyrəndik ki, müəssisə istehsalla yanaşı, xidmət sahəsi kimi də tanınıb. Bu məqsədlə müəssisənin ərazisində qədimliklə yeniliyin harmoniyası olan quruculuq tədbirləri həyata keçirilib. Toy mərasimlərinin keçirilməsi üçün müasir memarlıq üslubu ilə seçilən şadlıq sarayı, qədimliyi özündə yaşadan, xüsusi dizaynla bəzədilmiş, taxtadan qurulmuş, həsir tavanı olan istirahət guşəsi, istehsal olunan məhsullar daha münasib qiymətə alıcılara təqdim edən firma mağazası, kafe sakinlərin istifadəsinə verilib.

Onu da xatırlatmaq yerinə düşər ki, 2014-cü və 2016-cı illərdə sahibkar “Biznesdə uğur” mükafatına layiq görülüb. Bu il isə “Brend” media jurnalı tərəfindən “İlin ən yaxşı istehsalçısı” nominasiyası üzrə mükafatlandırılıb. Müəssisədə çalışanlar qazanılan uğurlarla kifayətlənmir, daha yaxşı nəticələr göstərmək üçün çalışırlar.

**Nail ƏSGƏROV**

Turizm

# Xalq sənətkarlığının inkişafı turizm sektorunda əhəmiyyətli rola malikdir

***Azərbaycan bəşər sivilizasiyasının ilk ünvanlarından biri kimi çox böyük mədəni-mənəvi irsə malikdir. Bu sivilizasiyanın mərkəzlərindən biri kimi tanınan Naxçıvan diyarı xalqımızın qədim və zəngin mədəni irsinin inkişafında, qorunmasında mühüm əhəmiyyət daşıyır. Saysız-hesabsız təbiət və tarixi abidələri, memarlıq inciləri, sənətkarlıq nümunələri ilə zəngin mədəniyyətimizi köksündə yaşadan Naxçıvan həm də tarixən xalq sənətkarlığının inkişaf etdirildiyi regionlardan olub.***



Naxçıvanda xalq sənətkarlığının tarixi elə tarixin özü qədər qədimdir. Gəmiqayadakı daş rəsmlərindən üzübəri müxtəlif mərhələləri keçən el sənətkarlığı xalqımızın yaradıcı xalq kimi özünü təsdiq etməsinə imkan verib. Bu diyarda indiyədək rast gəlinən qədim yaradıcılıq nümunələri, sənət növləri o qədər rəngarəngdir ki, bu nümunələrdə xalqımızın əhval-ruhiyyəsindən tutmuş mənəviyyatınadək, məişət





mədəniyyətindən tutmuş dini inancınadək hər şey öz əksini tapıb. Bu zənginliyin nəticəsidir ki, vaxtilə Naxçıvandakı sənətkarlıq ocaqlarında, emalatxanalarında düzəldilən sənətkarlıq nümunələri Şərqin və Qərbin mühüm ticarət mərkəzləri olan şəhərlərinə daşınıb, bu qədim diyara yolu düşən qonaqlara hədiyyə olunub, bəzi hallarda isə oğurlanaraq ölkədən çıxarılıb və ayrı adlarla dünyanın müxtəlif muzeylərində özünə "daimi məskən" salıb.

Ümidverici hal odur ki, xalq yaradıcılığı, el sənətkarlığı nümunələrimiz bu və ya digər yollarla ölkəmizdən kənara çıxarılsa da, başqa adlarla tanıdılsa da, xalqımızın özünəməxsus yaradıcılıq bacarığını kimsə əlindən ala bilməyib. Bu cür yaradıcı insanların sayəsində Naxçıvanda xalq sənətkarlığı özünün yeni inkişaf mərhələsini yaşayır.

Vurğulamaq lazımdır ki, Naxçıvanda xalq yaradıcılığının inkişaf etdirilməsinin daim diqqət mərkəzində olması, dövlətin bu sahəyə göstərdiyi qayğı yerli sənətkarlara yeni yaradıcılıq imkanları verib. Xalq yaradıcılığının yaşadılması, təbliği üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncam imzalayıb. Muxtar respublikamızda xalq yaradıcılığı günlərinin keçirilməsi ilə əlaqədar həmin il fevral ayının 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilib, müşavirədə müxtəlif aidiyyəti qurumların bu sərəncamla bağlı fəaliyyət istiqamətləri göstərilib. Eyni zamanda "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında ölkəmizin mədəni irsinin qorunması və səmərəli idarə edilməsilə bağlı görüləcək işlər öz əksini tapıb. Konsepsiyada bildirilir ki, Azərbaycan xalqının zəngin adət və ənənələrinin təbliği, milli bayram və mərasimlərin qorunub saxlanması, tarixi rəmz və abidələrin bərpası, milli musiqi və rəqslərin təşviqi, şifahi xalq yaradıcılığının qorunması, xalq oyun və tamaşalarının bərpası, təsviri, dekorativ və miniatür sənətinin zəngin ənənələrinin inkişaf etdirilməsi, dünyanın nüfuzlu muzeylərində saxlanılan Azərbaycan incəsənəti nümunələrinin öyrənilməsi və onların Azərbaycana aid olmasının təsdiqlənməsi, YUNESKO, İSESCO, TÜRKSOY və digər beynəlxalq təşkilatlarda təsviri sənətimizin təbliği və tanıdılması istiqamətində zəruri işlər görüləcək.

Qeyd etmək lazımdır ki, ötən dövrdə bu istiqamətdə bir çox işlər görülüb, o cümlədən muxtar respublikada xalq yaradıcılığı və sənəti ilə məşğul olan şəxslərin iş şəraitinin öyrənilməsi, onlara lazımi köməkliklərin göstərilməsi, muxtar respublikanın bölgələrində xalq sənətinin müxtəlif sahələri ilə məşğul olan sənətkarların əl işlərindən ibarət satış-sərgilərin təşkil olunması məqsədilə müvafiq qurumlarla qarşılıqlı fəaliyyət təmin edilib. Bir neçə il bundan əvvəl Naxçıvan şəhərinin müxtəlif yerlərində, o cümlədən "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində və Heydər Əliyev prospektində, əsasən, yerli sənətkarların əl işlərindən ibarət yeni suvenir mağazaları fəaliyyətə başlayıb. Bu gün həmin mağazalarda naxçıvanlı sənətkarlar tərəfindən hazırlanmış müxtəlif misgərlik, dulusçuluq, ağacoyma, rəsm əsərləri, toxunma geyimlər, kiçikölçülü xalçaçılıq məmulatları və sair satılır.

Xalq sənətkarlığının inkişaf etdirilməsi suvenir bazarının formalaşdıran əsas amillərdəndir. Hazırda turizmin inkişaf etdirildiyi ölkələrin hər birində həmin ölkəyə (xalqa) aid suvenir bazarı xüsusi əhəmiyyət daşıyır. Suvenirlər özünəməxsusluq elementinin daşıyıcısı olmaqla yanaşı, həm də bir təbliğat nümunəsidir. Aparılan sorğular nəticəsində məlum olub ki, turistlərə getdikləri ölkəni sonradan xatırladan səbəblər içərisində suvenirlər öndə gəlir. Çünki suvenirlərdə aid olduğu ölkənin tarixindən, mədəniyyətindən, məişətindən tutmuş milli dəyərlərinə, dünyaya baxış tərzinə, zövqündək çox cizgilər yatır. Buna görə də turizmin inkişaf etdiyi ölkələrdə suvenir bazarları tələbat üzərində olmaqla yanaşı, həm də güclü marketinq strategiyası əsasında formalaşır. Naxçıvanda suvenir bazarı yeni formalaşmağa başlasa da, bu bazarın özünün hədəfləri, marketinqi olmalıdır. Təbii ki, tələbat üzərində qurulan iqtisadi mexanizmlərin effektivliyi açılmazdır. Ancaq hər bir məhsulun və ya xidmətin dəyəri onu necə təqdim etməkdən çox asılıdır. Məsələn, Özbəkistan televiziyalarının birində turizmlə bağlı hazırlanmış proqramda Daşkənddəki ənənəvi papaqçılıq mağazalarından reportajlar təqdim olunurdu. Nisbətən daha bahalı papaq dükanında satıcı satışların zəifləyindən şikayətlənsə də, əcnəbi turistlərə milli papaqlarda (eləcə də digər geyimlərdə) fotoşəkil çəkdirməklə alternativ variantlar təklif edirdi. Yəni "papaq almaq üreyindən keçmirsə, papaqla fotoşəklə yaqin ki, yox deməzsən" məntiqi əcnəbilərə təqdim edilən milli geyimlərə rəğbəti ortaya qoyurdu.

Bu məsələ ona görə xatırlatdım ki, Naxçıvan şəhəri bir neçə aydan sonra "İslam mədəniyyətinin paytaxtı" titulunu daşımağa başlayacaq. Bununla bağlı xalq yaradıcılığının müxtəlif sahələri ilə məşğul olan sənətkarlarımız belə fürsəti yetərincə dəyərləndirməlidirlər. Çünki bu gün Naxçıvanın əcnəbi turistlərə təqdim edəcəyi saysız-hesabsız milli nümunələri var: ağac üzərində oyma işlərindən daşduz suvenirlərinə, misgərlik məmulatlarından kələğayı və araqçına, türk-islam mədəniyyəti abidələrindən təbiət gözəlliklərinin təsvirinədək həkk olunmuş müxtəlif əl işləri və sair. Əmək sərf edilən hər bir sənətkarlıq nümunəsinin bura gələn müsəlman turistlərin (ümumilikdə, bütün turistlərin) marağında olmasına çalışmalıyıq. Qədim Naxçıvanı layiqincə təbliğ etmək üçün artıq sənətkarlarımız indidən qollarını çırmalamalıdırlar. Unutmayaq ki, bu gün muxtar respublikada xalq sənəti növlərinin qorunması və təbliği istiqamətində əvəzsiz işlər görülür.

Ən maraqlısı isə odur ki, muxtar diyarımızda istənilən sənətkarlıq nümunəsinin ərsəyə gətirilməsi üçün təbiət bizə tükənməz xammal bəxş edib. Müxtəlif sənətkarlıq sahələrinin inkişaf etdirilməsi daxili bazarı təmin etməklə yanaşı, yaxın gələcəkdə xarici bazarlarda da özünə alıcı kütləsi qazana bilər.

Səbuhi HƏSƏNOV

***Bu gün muxtar respublikada Naxçıvana dair əlyazma kitablarının zəngin xüsusiyyətləri, onların müəllifləri, xəttatları, miniatürçü rəssamları, nəqqaş-müzəhibləri və bədii cild ustalarının yaratdığı sənət əsərləri barədə araşdırmalar aparılır. Ötən günlərdə AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun şöbə müdiri, dosent Səbuhi İbrahimovun "Naxçıvanın mənəvi-mədəni irsinə dair əlyazma mətnləri" adlı yeni monoqrafiyası işıq üzü görüb.***

# Əlyazma kitab mədəniyyəti tariximiz haqda bir neçə söz

Bu monoqrafiyada müəllif AMEA-nın Naxçıvan Bölməsinin Əlyazmalar Fondunda, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və bir sıra ölkələrin kitabxanalarında saxlanılan türkdilli, ərəbdilli və farsdilli əlyazmalara müraciət edib. Akademik Teymur Kərimlinin məsləhətçiliyi, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin elmi redaktorluğu, filologiya üzrə elmlər doktoru, professor Sənan İbrahimov və filologiya üzrə elmlər doktoru Fərman Xəlilovun rəyi ilə "Elm və təhsil" nəşriyyatında çap olunan bu kitab Naxçıvana dair əlyazma mətnlərinin qaynaqları, təsvir prinsipləri, filoloji-tekstoloji təhlilinə əsaslanan ilk monoqrafiyadır. Nəşrdə Əbu Bəkr ibn Xosrov əl Ustadın "Munisnamə", Hacı Molla Məhəmməd Naxçıvaninin "Səhabəd-Dümü" kitabları, Əsədi Tusinin "Gərşaspnamə" epopeyası, Məhəmməd Tağı Sidqinin "Dilimiz və məktəbimiz" məktubu, Məmməd Səid Ordubadinin "Qanlı sənələr", Türkiyə Cümhuriyyətinin Osmanlı arxivində saxlanan "Naxçıvan sancağı" adlı əlyazmalar və digər əsərlər elmi cəhətdən təhlil olunur. Bununla bağlı bəzi suallara cavab tapmaq üçün AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun şöbə müdiri, dosent Səbuhi İbrahimova müraciət etdik:

***– Naxçıvana dair əlyazma kitablarının əsas xüsusiyyətləri nələrdir?***

– Dünyanın bir çox ölkələrinin muzey və kitabxanalarında saxlanılan qiymətli əsərlər Naxçıvana dair əlyazma kitablarının zəngin xüsusiyyətlərindən xəbər verir. Bu günə qədər gəlib çatan Naxçıvana dair əlyazma mətnlərini, əsasən, üç qrupa – adi, orta və yüksək səviyyədə tərtib olunmuş kitablara bölmək olar. Naxçıvana dair əlyazmaların zəngin xüsusiyyətlərindən hesab edilən kitab mədəniyyətinin yaranması və onun tərtib edilməsinin əsas səbəblərindən biri Naxçıvanda xəttatlıq sənətinin inkişafı olub.

Məlum olduğu kimi, orta əsrlərdə Azərbaycan – türk, ərəb və fars dillərində olan əsərlərin hamısı ərəb əlifbası ilə yazılırdı. Nəstəliq xəttinin geniş yayılmasına baxmayaraq, Naxçıvan xəttatları nəsx, süls, reyhani, tövqi, rüqə, mühəqqəq, təliq və sair xətlərdən də istifadə edirdilər. Naxçıvan xəttatları həm də daha iti yazılan və kağızda az yer tutan şikəstə xəttinə də üstünlük veriblər. Naxçıvanda nəfis əlyazma kitablarının yaranmasında xəttatlarla yanaşı, miniatürçü rəssamlar, nəqqaş-müzəhiblər və bədii cild ustaları iştirak ediblər. Qərb ustalarının hazırladıqları cildlərdən fərqli olaraq, Naxçıvanda əlyazma kitablarının kötüyü hamar, qapaqları səhifələrlə eyni ölçüdə olub.

Cildçilik sənəti Şərqdə geniş yayılmışdı və həmin təcrübədən Naxçıvanda da istifadə olunurdu. Təbəqədən və maye qızıldan istifadə etməklə hazırlanan naxışlı dəri cildlər Naxçıvanda çox idi. Orta əsrlərdə yaranıb bu günə qədər gəlib çatan Naxçıvana dair əlyazma kitablarının əksəriyyətinə başqa ölkələrin kitabxanalarında, muzeylərində və şəxsi kolleksiyalarda rast gəlmək olar. Bu kitabların ən nəfis nümunələri Hindistan, İran, Misir, İngiltərə, Fransa, Amerika, İtaliya, Vatikan, Almaniya və başqa ölkələrin dövlət kitabxanalarında saxlanılır. Nəsirəddin Tusinin, təxminən, dünyanın 75 ölkəsinin muzey və kitabxanalarında 2400-dən artıq müxtəlif əlyazma əsərləri mühafizə olunur. Bütün bunlarla yanaşı, Naxçıvana dair əlyazmaların bir qismi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu və AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda mühafizə edilir. Ölkəmizdə, təxminən, 25 mindən artıq əlyazma vardır. Dünya kitabxanalarında saxlanılan Naxçıvana dair əlyazmaların mikrofilm və fotosurətləri çıxarılıb və Naxçıvana gətirilib.

***– Naxçıvanda əlyazma kitab mədəniyyətinin formalaşmasında ictimai-siyasi münasibətlərin rolu olubmu?***

– Bildiyiniz kimi, VIII əsrin birinci yarısında Azərbaycanın digər bölgələri kimi, Naxçıvanda da ictimai-siyasi münasibətlər, mədəni həyat kökündən dəyişməyə başladı. Ərəb xilafətinin hakimiyyəti və İslam mədəniyyətinin yayılmasından sonra başqa əqidələr tənəzzülə uğradı. XX əsrin əvvəllərinədək Naxçıvanda ən geniş yayılan əlyazma kitablar müqəddəs "Qurani-Kərim" və onun izahları, təfsirləri oldu. XII-XIII əsrlərdə, Naxçıvan Atabəylər dövlətinin 30 illik dövrdə mərkəzi olan zaman Azərbaycan xəttat və sənətkarlarının hazırladığı "Qurani-Kərim"in təfsiri indi Paris Milli Kitabxanasında saxlanılır. Bu təfsiri Naxçıvanda məşhur tarixçi Məhəmməd ibn Cərir Təbəri yazmışdı. Həmin kitab nəinki Naxçıvan, ümumiyyətlə, Azərbaycan əlyazma kitab mədəniyyətinin ilk nəfis nümunəsidir.

Digər bir əlyazma kitabı haqqında isə K.İ.Çaykin məlumat verir: "Əli bin Əhməd əl-Əsədi ət-Tusi (hicri 456-458/miladi 1064-1066-cı illər ərzində) Naxçıvanda vəzir Məhəmməd bin İsmail Hüsninin və onun qardaşı İbrahimin sifarişi ilə "Gərşaspnamə" adlı bir poema yazmış və onu buranın hakimi Əmir Əbu Duləf Dəyraniyə təqdim etmişdi". XIII əsrdə elmi əsərlər yazıldığı halda, XIV əsrdə həm də ədəbi-bədii əsərlər yazılır. XIV əsrin əvvəllərində Naxçıvanda elmi şəhərcik yaradılaraq onun içində müalicə mərkəzi, elmi idarələr, rəsədxana, zəngin kitabxana fəaliyyət göstərib.

Həmin dövrdə öz yaradıcılıq istedadı ilə bütün Şərq dünyasında tanınan görkəmli alim Məhəmməd Naxçıvani yaşamışdır. Onun ədəbi-bədii yaradıcılıq intibahı hesab edilən "Dəstur əl-katib fi təyin əl-məratib" əsəri bütün Şərq aləmində Məhəmməd Naxçıvaniyə böyük şöhrət qazandırmışdır. XIV əsrdə kitabların Azərbaycan dilində yazılması nəinki Naxçıvan üçün, həm də bütün Azərbaycan üçün əhəmiyyətli idi. XVI əsr Səfəvilər imperiyasının əsasını qoyan görkəmli dövlət xadimi Şah İsmayıl Xətainin yaratdığı dövlətin ədəbi-bədii yaradıcılıq nümunələrindən danışmamaq mümkün deyil.

***– İslam mədəniyyətinin bir qolu olan miniatür sənəti əlyazma kitablarda öz əksini necə tapıb?***

– XVI əsrdə Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da miniatür sənəti özünün ən yüksək inkişaf mərhələsinə qədəm qoydu, bu da, öz növbəsində, Naxçıvanda bədii tərtibatlı əlyazmaların inkişafına təkan verdi. Həmin vaxtda şifahi xalq yaradıcılığı nümunələri, aşıq yaradıcılığı, nağıllar və dastanlar yazıya köçürülüb əbədiləşdirilir, xalçaçılıq, toxuculuq, memarlıq və sair sənət sahələrindəki ənənəvi bədii təsvirlər, naxışlar, həndəsə və bitki ornamentləri əks etdirilirdi.

XVIII əsrdə Azərbaycanda olduğu kimi, Naxçıvanda da şifahi xalq ədəbiyyatı, yazılı ədəbiyyat və aşıq ədəbiyyatının bir-birilə qovuşduğu dövr adlanır. Lakin Naxçıvanda əlyazma nümunələri azalır. XIX əsrdə Naxçıvana dair əlyazma tarixinin yaranması və inkişafı, demək olar ki, daha da yaxşılaşmağa doğru yönəlib. Bu dövrdə Naxçıvanda kitablar daşbasma üsulu ilə çap edilməyə başlasa da, texnikanın çox zəif tətbiqi, kitab çapının mövcud ehtiyacları ödəyə bilməməsi, əlyazma kitabının yaşamasını zəruri edir, bir çox kitablar əlyazma kitabları şəklində köçürülüb çoxaldılırdı. Nəinki Naxçıvanda, Azərbaycanda nəfis, qiymətli əlyazma kitablarının son yaradıcısı Əbdülqəni Nuxəvi olub. Nəticə etibarilə Naxçıvana dair əlyazma mətnşünaslıq nümunəsi kimi İslam mədəniyyətinin yaradılmasında ərəb xilafətinə daxil olan xalqlar, o cümlədən Azərbaycan və başqa türkdilli xalqlar böyük xidmətlər göstəriblər. Bu həqiqəti ərəb alimi ibn Xəldun qeyd edib. Müsəlman xalqlarının ziyalıları, o cümlədən Naxçıvan mütəfəkkirləri ərəb alimləri ilə yanaşı, apardıqları məhsuldar elmi və ədəbi fəaliyyəti nəticəsində çoxtərəfli zəngin mədəni irs yaradıblar. Bu zəngin irsin yaradılmasında Naxçıvanın elm-sənət adamlarının da xüsusi əməyi olub.

***– Maraqlı müsahibə üçün sağ olun!***

Səbuhi HÜSEYNOV

*Jurnalistin qeydləri*

# Çörək növbələrindən lavaş ətirli təndirlərə



*Yolum Şərur elinə düşəndə beynimdə həmişə fərqli düşüncələr dolaşır. İstər-istəməz xəyal gəmisində illər öncəyə qayıdır, tarixə qısa səyahət edirəm.*

Şüşə kimi yolları, şoran torpaqlarda bu gün qol-budaq atan ağacları, ilan mələyən, tikan-qanqal basmış düzlərdə dəniz kimi dalğalanan taxıl zəmilərini, kərpic-kərpic tikilən Kəngərli rayonunu, Şərurun yan-yana düzülmüş abad kəndlərini, Arpaçaydan evlərə süzülən nuru, işığı, zəmilərə axan bərəkəti, Oğlanqalada, Qızqalada vərəqlənən tariximizi, göz işlədikcə uzanan düzənliklərdə soğan, kartof, taxıl əkən zəhmətkeş insanları, bara dolan meyvə bağlarını görəndə insan muxtar respublikanın digər bölgələri kimi, bu yerlərin də çox dəyişildiyinin şahidi olur. Xüsusilə bu günlərdə dalğalı dənizi xatırladan taxıl zəmiləri adamı illər öncəyə aparır, çörək növbələri, un qıtlığı yada düşür.

Yaxşı yadımdadı, 1990-cı illərdə dağ kəndlərinə, eləcə də böyüdüyüm Kükü kəndinə ara-sıra un maşını gələrdi və camaat zor-bəla ilə bir kisə un alardı. Yəni insanlar şəhərdə çörək növbəsinə, kənddə un növbəsinə durmağa məcbur idilər. Müharibə gedirdi, Naxçıvan blokadaya salınmışdı, ölkənin başında oturanlar xalqın, dövlətin yox, kreslolarının qeydinə qalırdı, bir sözlə, gündəlik çörək tapmaq müşkül məsələyə çevrilmişdi.

Ulu öndər Heydər Əliyevin Naxçıvana gəlişindən sonra insanların sönmüş ümidləri, arzuları da özlərinə qayıtdı. Milli liderin xalqına, xalqın isə öz xilaskarına olan sonsuz inamı, güvəni yavaş-yavaş bütün işləri sahmanına qoydu, təsərrüfatlar özəlləşdirildi, zəmilər əkildi, insanlar torpağının sahibinə çevrildi, gün-güzəran yaxşılaşdı.

O illərdən xeyli keçmişdi, hardasa 1998-ci il olardı. Kəndimizdəki dükandan un almağa getmişdik. Unun urvatın soraq edəndə satıcı Çingiz dedi ki, bəs bu, yerli undur, Şərurdan gəlib, almağınız məsləhətdir. İki kisə un alıb üz tutduq evə. Nənəmə satıcının dediklərini deyəndə onun gözləri doldu, hətta bizi qucaqlayıb şükür edə-edə ağladı. O vaxt nənəmin niyə ağladığını və bu gün də yaddaşımdan silinməyən sözlərini böyüyəndən sonra başa düşdüm: "Ay bala, torpaq çörəyi, insan əməyi ilə yüksələr. Öz torpağının taxılın biçən, çörəyin yeyən xalq əyilməz, güclü, vüqarlı olar".

Əslində, nənəmin bu sözlərində böyük hikmət vardı. Çörək tarixən xalqın sərvəti olmaqla yanaşı, həm də qüdrəti hesab olunub. Həqiqətən, istər qədim zamanlarda, istərsə də müasir dövrdə o məmləkət güclü hesab edilib ki, onun çörəyi bol olub. Naxçıvan qədim insan məskəni olduğundan bu torpaqda təsərrüfatçılıq ənənələri də min illər əvvəl formalaşıb, insanlar əkinçiliklə geniş məşğul olublar. Qədim yaşayış məskənlərindən tapılan kömürləşmiş buğda və arpa, eləcə də müxtəlif formalı təndirlər, daş dən yuyan hovuzlar (Kükü kəndində iki qədim hovuz bu gün də qalır), su dəyirmanları və əkinçilik alətləri bu ərazidə buğda bitkisinin becərilməsinin və çörək bişirilməsinin qədim tarixə malik olduğunu göstərir.

Tarixboyu çörək andımız, alqışımız olub, qonaq gələndə süfrəyə birinci duz-çörək gətirilib, çörək evin ruzi-bərəkəti hesab edilib, bir tikə duz-çörəyin mənəvi yükü dostluğun, yoldaşlığın məhvərinə çevrilib. Bu gün brend məhsula, damaq dadımıza çevrilən, ekoloji cəhətdən təmiz və insan sağlamlığı üçün faydalı olan Naxçıvan çörəklərinə – lavaş, dəstana, qalın, tapı və başqalarına tələbat çoxdur. Ötən il keçirilən "Naxçıvan çörəkləri" festivalı da Naxçıvanda müqəddəs nemət sayılan çörəyə verilən dəyərin, bolluq və bərəkətin daha bir ifadəsi formalaşmış kulinariya mədəniyyətimizin öyrənilməsi və təbliği işinə mühüm töhfə verdi.

Bu gün Naxçıvanda bir qarış torpaq belə, boş qalmır. Torpaqların hamısı rayonlaşıb, hansı torpaqda nə əkmək lazımdır müəyyənləşdirilib, suyu çəkilib qoyulub başının üstünə, torpaq mülkiyyətçilərinə texnika verilib, istehsal etdikləri məhsulun bazarı yaradılıb. Taxıl əkinində ən mütərəqqi metodlar öyrənilib tətbiq olunur. Ta "necə və nə gəldi əkim, necə gəldi suvarım, iki ildən sonra da torpağı şoran edim" halları yoxdur. Aylarla kombayn növbəsi də gözlənilmir. Biçin kampaniyası uzanmır, məhsul zay olmadan vaxtında tədarük edilir. Biçin işlərini sınıq-sökük, bir hektarı biçib sona çatdıranadək on dəfə təmirə dayanan kombaynlar yox, iş əmsalı yüksək, rahat, manevrli, kondisionerli kombaynlar aparır. Liziniq yolu ilə torpaq mülkiyyətçilərinə, fermerlərə o qədər texnika satılıb ki, artıq şum da, əkin də, biçin də optimal müddətdə başa çatdırılır.



İndi şəhərdə çörək, kənddə un növbəsi yoxdur. Demək olar ki, əksər kəndlərdə ən azından bir çörək sexi fəaliyyət göstərir. Şəhərdə bişirilən çörəklər hər gün dan yeri sökülməmiş artıq kənddəki xidmət məntəqələrinə çatdırılır. Zəmilərdən, bostanlardan bərəkət yağır. Halallıq, ruzi-bərəkət ətri duyulur. Çəkilən zəhmət fermerin, kəndçinin qazancını bol, güzəranını xoş edir, anbarlar taxılla dolur, nəticədə isə ərzaq təhlükəsizliyimiz təmin olunur. Ən müasir taxıl anbarlarında, dəyirmanlarda biçin başlayan kimi taxılın qəbulu da aparılır. Toxumçuluq təsərrüfatları növbəti ilin toxum tədarükünü görür.

Naxçıvanın çayətrafı kəndlərinin hamısında vaxtilə su dəyirmanları olub. Bu dəyirmanlarda üyüdülən buğda unu həm keyfiyyətinə, həm də dadına-tamına görə seçilir. Ruzi-bərəkət rəmzi kimi baxılan su dəyirmanları haqqında maraqlı adətlər, mərasimlər, el məsəlləri və atalar sözləri yaranıb. Yəni bu gün, əslində, su dəyirmanları tarixi-mədəni irsimizin bir parçasına çevrilib. Son illər Naxçıvanda 3 su dəyirmanı bərpa edilib. Turizmin dünyada cövlan etdiyi və sağlam qidalanmanın ön plana çəkildiyi bir vaxtda qəbul edilən bu qərarın böyük iqtisadi, mədəni və sosial dəyəri vardır.

Onu da deyim ki, Naxçıvanda taxıl sahələrindən bol məhsul götürmək o qədər də asan məsələ deyil. Burada kəskin kontinental iqlim şəraiti, eləcə də yağıntıların az olması, torpaqların şoranlaşmaya meyilliliyi özü ilə bərabər bir sıra çətinliklər gətirir. Amma bunun da öhdəsindən gəlinib. İndi mütəxəssislər, aqronomlar əkində də, biçində də kəndlinin yanındadır. İzahat, maarifləndirmə işləri, aparılan söhbətlər, ən əsası isə iqlimə, şəraitə uyğun toxum sortlarından istifadə mövcud çətinlikləri aradan qaldırıb. Toxumçuluq təsərrüfatlarının səmərəli fəaliyyəti, biçin kampaniyasının vaxtında aparılması itkisiz və bol məhsul yığımına imkan verir. Bir sözlə, atalar demişkən, dənizçinin məharəti fırtınalı dənizdə məlum olan kimi, Naxçıvan taxılçılarının məharəti də şoranlaşmaya meyilli torpaqlarda ərsəyə gətirdikləri zəmilərlə, istehsal etdikləri bol taxılla bəlli olur.

Təbii ki, su tökməklə dəyirman işləməz. Gərək zəhmət çəkəsən, məsləhət verməkdən çox qolunu çırmayıb iş görəsən. Vətəni sevməyi əməlinlə, işinlə göstərəsən. Naxçıvan dəyirmanlarının da gecə-gündüz işləməsinin səbəbi bax budur: zəhmət və yurd sevgisi. Bu dəyirmanın suyu zəhmət təridir. Naxçıvanın iyirmi beş ildən artıq blokadada olmasına baxmayaraq, böyük inkişaf yolu keçməsinin, ərzaq və enerji təhlükəsizliyinin təmin olunmasının da səbəbi elə zəhmət və yurd sevgisidir. Bu gün həm xarici bazarlara, həm də ölkəmizin digər bölgələrinə hər gün tonlarla Naxçıvan məhsulu göndərilir. Naxçıvanın yazda göycəsi və pencəri, yayda əriyi, şaftalısı, pomidoru, bibəri, badımcanı, payızda alması, cəvizi, balı, pendiri, yağı, lavaşı, qışda quru meyvələri, əti, müxtəlif ev məhsulları qapı-qapı axtarılır. Əsrlər sonra da axtarılacaq. Çünki bu torpağın bərəkəti aşıb-daşır. Elə biçininin qızğın çağında olduğumuz barlı-bərəkətli taxıl zəmiləri kimi... Əkən də, yığan də, qəbul edən də razıdır. Məhsulumuz bol, ruzimiz bərəkətli, təknəmiz unlu, təndirimiz daim yanar, çörək-lavaş ətirli olsun...

**Ülvi HÜSEYNLİ**
***jurnalist***

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətindən aldığımız məlumata görə, cari ilin iyun ayı ərzində Xidmət miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, idarə edilməsi və tənzimlənməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması istiqamətində müvafiq tədbirləri davam etdirib. Ötən ay Xidmət tərəfindən muxtar respublikada olma, müvəqqəti yaşama qaydalarına əməl etmədən mövcud qanunvericiliyin tələblərinin pozulması üzrə 37 əcnəbi aşkarlanıb. Onlardan 27-si barəsində Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərketmə, 5-i barəsində inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılma qərarı qəbul edilib. 5 əcnəbinin isə ölkə ərazisində yaşaması leqallaşdırılıb.

Ümumilikdə, ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 1338 müraciət daxil olub. Bu müraciətlərdən 83-ü əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti və daimi yaşamaq üçün icazənin, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlıdır. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib. Ötən ay ərzində olduğu yer üzrə qeydiyyatla bağlı Xidmət tərəfindən 1255 müraciət qeydə alınaraq icrası təmin olunub. Həmin müraciətlərin 365-i Xidmətin sərhəd-buraxılış məntəqələrində fəaliyyət göstərən bölmələri tərəfindən qəbul və icra edilib.

Hazırda Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq ardıcıl maarifləndirmə tədbirləri həyata keçirilir.

## Gigiyena və epidemiologiya tədbirlərinə diqqət artırılır

Şahbuz Rayon Gigiyena və Epidemiologiya Mərkəzindən aldığımız məlumata görə, bu ilin 6 ayı ərzində 275 obyektdə 24 min 220 kvadratmetr sahədə, 53 obyektdə 9600 kvadratmetr sahədə dezinseksiya işləri görülüb. 2017-ci ilin əvvəlindən etibarən hər ay üçün monitorinq keçiriləcək obyektlərin qrafiki hazırlanıb və hər gün dövlət müəssisələrində və sahibkarlıq obyektlərində yoxlamalar aparılıb və lazımi obyektlərdə akt tərtib olunub. İctimai iaşə müəssisələrində və ərzaq satışı mağazalarında sanitar pozuntuların aradan qaldırılması üçün şifahi tapşırıqlar verilib. Şahbuz Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşları zoonoz infeksiyaların yayılmaması üçün Şahbuz Rayon Baytarlıq İdarəsi ilə birlikdə əhali arasında bruselyoz, qarayara, quduzluq və digər zoonoz infeksiyalar haqqında geniş səhiyyə maarifi işləri aparıb.

**Xəbərlər şöbəsi**

## Çağırışçı gənclər muzeyi ziyarət ediblər

Hərbi xidmətə yola salınacaq gənclərin iştirakı ilə Sədərək Tarix-Diyarşünaslıq Muzeyində "Müsəlləh əsgərəm mən də bu gündən" adlı tədbir keçirilib.

Gənclər muzeydəki İkinci Dünya müharibəsi zamanı və torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə şəhid olan soydaşlarımıza həsr edilmiş stendlərə, digər eksponatlara baxıb və ordu quruculuğu sahəsində ümummilli lider Heydər Əliyevin fəaliyyətini əks etdirən fotoşəkillərlə və digər məlumatlarla yaxından tanış olublar. Muzeydə gəncləri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, tədbir Sədərək Rayon Gənclər və İdman İdarəsi, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sədərək rayon şöbəsinin birgə təşkilatçılığı ilə keçirilib.

## İdmançımız beynəlxalq turnirin qalibi olub

Azərbaycanda Türk Şurası Dövlətlərinin ilk peşəkarlararası kikboksinq turniri keçirilib. Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan kikboksçularının qarşılaşdığı turnirdə 7 çəki dərəcəsi üzrə yarımfinal və final döyüşləri baş tutub. WAKO-PRO versiyası üzrə K-1 üslubunda keçirilən döyüşlərdə Azərbaycan yığması ən yaxşı nəticəni göstərib. Belə ki, Azərbaycan komandası 6 qızıl medal qazanaraq kubokun sahibi olub.

İdman gecəsində gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, nazirliyin İdman şöbəsinin müdiri Fərid Mansurov, Milli Məclisin deputatları, Türkiyənin, Qazaxıstanın, Qırğızıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirləri və Azərbaycan Kikboksinq Federasiyasının rəsmiləri iştirak ediblər.

Qeyd edək ki, turnirdə hər ölkədən yeddi idmançı olmaqla, 51, 60, 63, 67, 71, 81 kiloqram və 91 kiloqramdan yuxarı çəki dərəcələrində yüksək ustalığa malik peşəkar kikboksçular mübarizə aparıblar.

Azərbaycan yığma komandasının heyətində yarışların finalına yüksələn altı idmançımızdan biri də Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirməsi Ruslan Musayev (67 kiloqram) olub. O, finalda qalib gələrək beynəlxalq turnirin baş mükafatını qazanıb. Onunla yanaşı, Anar Məmmədov (51 kiloqram), Zöhrab Əzimov (60 kiloqram), Turan Qafarov (63,5 kiloqram), Ramal Aslanov (71 kiloqram), Ehtiram Rzayev (81 kiloqram) öz çəki dərəcələrində beynəlxalq turnirin qalibi olublar.

Komanda hesabında millimiz birinci yerdə qərarlaşıb.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Məmmədova Şövkət Əli qızının adına Naxçıvan Tibb Kolleci tərəfindən verilmiş 038214 nömrəli diplom itdiyindən etibarsız sayılır.

**ŞƏRQ** *qapısı*
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Muxtar Məmmədov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1000. Sifariş № 539**